No: 01 2025
http://doi.org/10.64400/ndueej.001
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# BEYNƏLXALQ TƏŞKİLATLAR MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN ƏSAS AKTORLARI KİMİ

**Təbrizə Bağırova**[1]
https://orcid.org/ 0009-0009-7451-4649
[1]**Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan**
**Yazışılan müəllif:* **tabrizabaghirova@ndu.edu.az**; *Tel.: +506536497*

## Xülasə

Vestfaliya müqaviləsi ilə əsası qoyulan müasir beynəlxalq münasibətlər sistemində dövlətlərarası münasibətlərin tənzimlənməsi və əməkdaşlığın qurulması üçün beynəlxalq təşkilatlar mühüm rol oynamağa başlamışdır. Son onilliklərdə beynəlxalq təşkilatların sayı və funksiyaları sürətlə genişlənmişdir. Əvvəllər dövlətlərin səlahiyyətində olan bəzi funksiyalar artıq beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir ki, bu da dövlətlər arasında inteqrasiyanı artırır. Bununla yanaşı, dövlətlərin bəzi öhdəliklərinin qeyri-dövlət aktorlarına ötürülməsi yeni risklər yaradır. Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ) və digər beynəlxalq qurumların üzv dövlətlər qarşısında məsuliyyəti və onların qərarlarına təsir imkanları bu kontekstdə önəmli müzakirə mövzusudur. Nəticə etibarilə, beynəlxalq təşkilatların fəaliyyəti və təsiri üzv dövlətlərin maraqları və nəzarət mexanizmləri çərçivəsində formalaşır.

**Açar sözlər:** *Beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlar, milli dövlətlər.*

## Giriş

1648-ci ildə Avropada 30 illik müharibəyə son qoyan Vestfaliya müqaviləsi bir tərəfdən dünyanın ən qanlı müharibələrindən birinə son qoydu, digər tərəfdən də beynəlxalq sistemi kökündən dəyişdirən suverenlik anlayışını dünya sisteminə gətirdi. "Milli-dövlət"in ümumbəşəri imperiyalara qarşı qələbəsini simvolizə edən bu sülh müqaviləsi beynəlxalq aləmdə dövlətlərin suverenliyini və bərabərliyini prinsipcə fundamental qaydaya çevirmiş oldu. Bu anlayışın təbii təzahürü olaraq dünya sistemində suveren və bərabərhüquqlu dövlətlərdən ibarət strukturun qurulması prosesi başladı. Bu proses zamanı çoxmillətli imperiyalar bir-bir dağıldı və onların yerində yeni çox saylı milli dövlətlər yarandı. Fransa inqilabının oyandırdığı millətçilik hərəkatı suveren bərabərlik prinsipi ətrafında yenidən formalaşan bu yeni nizama yeni bir ruh əlavə etdi və dünya sistemi "millətlər sistemi" və ya "beynəlxalq sistem" adlandırılmağa başladı. Suveren və bərabərhüquqlu dövlətlərdən ibarət olduğu güman edilən bu yeni beynəlxalq sistem heç bir mərkəzi hakimiyyətin olmadığı və dövlətlərin ümumiyyətlə təhlükəsizlik qayğıları ilə hərəkət etdiyi anarxik xüsusiyyət göstərməyə başlamış, təhlükəsizlik problemləri beynəlxalq münasibətlərin əsas mövzusunu təşkil etməyə başlamışdır. Təhlükəsizliyin əsas məsələ olduğu beynəlxalq sistemdə əməkdaşlıq və inteqrasiya sahəsində inkişaflar kifayət qədər məhdud olaraq qalmışdır (Uluslararasi Örgütler, 2013, s. 4).

Suveren və bərabərhüquqlu hesab edilən dövlətlərə əsaslanan bu yeni beynəlxalq sistemdə dövlətlərarası münasibətləri tənzimləmək və əməkdaşlıq etmək üçün dövlətlər yalnız beynəlxalq təşkilatlar yaratmaq yolunu tapmışlar. Başqa sözlə, Vestfaliya müqaviləsi və onun suverenlik və bərabərlik anlayışı beynəlxalq təşkilatların yaranmasında həlledici rol oynamışdır. Bu səbəbdən ərazi, suveren və bərabərhüquqlu milli dövlətlərdən ibarət yeni beynəlxalq sistem "Vestfaliya sistemi" adlandırıldı. Beynəlxalq münasibətlər ədəbiyyatında Vestfal nizamının hələ də davam etdiyi ümumi

qəbul olunmuş bir fikirdir. Bu, müəyyən mənada beynəlxalq sistemin suveren və bərabərhüquqlu sayılan milli dövlətlərin strukturu olaraq qalması anlayışına əsaslanır.

Beynəlxalq münasibətlər nəzəriyyəsi tarixində beynəlxalq təşkilatların dünya siyasi prosesində rolu və yeri barədə müxtəlif və çox vaxt bir-birinə tam əks olan təsəvvürlər formalaşıb. Realist istiqamətin nümayəndələri (siyasi realizm, neorealizm) beynəlxalq münasibətlərdə beynəlxalq təşkilatların rolunun ikinci dərəcəli olduğunu düşünürlər. Onlar beynəlxalq təşkilatlara ya dövlətin öz maraqlarını müdafiə etmək üçün yaratdığı qurum, ya da ayrı-ayrı dövlət və dövlətlər qrupunun xarici siyasətində bir vasitə kimi baxırlar. Liberal istiqamətin nümayəndələri isə beynəlxalq təsisatların fəaliyyətində beynəlxalq münasibətlər sisteminin və strukturunun bütövlükdə yenidən qurulmasına ümid bağlayırlar. Onların fikrincə, beynəlxalq təşkilatlar nəinki dövlətdən fərqli olaraq beynəlxalq siyasətdə tam müstəqil rol oynaya bilməz, hətta yavaş-yavaş dövləti beynəlxalq siyasətdən kənara atmaq qabiliyyətinə belə malikdir. Bununla belə, liberallar və neoliberallar həmişə belə güman edirlər ki, beynəlxalq təşkilatlar təkcə dövlətlərarası deyil, həm də millətüstü xarakterə malik ola, ayrı-ayrı milli dövlətlərin hakimiyyəti fövqündə yer tuta bilərlər (Babaoğlu, 2010, s.185).

**Beynəlxalq təşkilatların növləri**

Səlahiyyətləri və iştirakçı dövlətlərin tərkibinə görə bu təşkilatlar müxtəlif qurumlara bölünür:

**Ümumi səlahiyyətli dövlətlərarası beynəlxalq təşkilatlar** – fəaliyyət sahələri beynəlxalq münasibətlərin siyasi, iqtisadi, mədəni və digər aspektlərini əhatə edən dövlət birlikləri (məsələn, BMT) və/və ya **Regional mənsubiyyətindən asılı olmayaraq hər bir dövlətin üzv ola biləcəyi universal beynəlxalq təşkilatlar** – məsələn, vaxtilə mövcud olmuş Millətlər Liqası, hazırda BMT və onun ixtisaslaşmış qurumları (Babaoğlu, 2010, s.187):

BMT Üzvlərinin sayı 1945-ci ildə ilkin 51 Üzv Dövlətdən indiki 193 Üzv Dövlətə qədər artmışdır. BMT-nin bütün üzv dövlətləri Baş Assambleyanın üzvləridir. Dövlətlər Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Assambleyanın qərarı ilə üzvlüyə qəbul edilirlər. Birləşmiş Millətlər Təşkilatı (BMT) beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqlar və ölkələr arasında dostluq münasibətlərini inkişaf etdirmək, beynəlxalq əməkdaşlığa nail olmaq məqsədi daşıyan və üzv dövlətlərin hərəkətlərinin əlaqələndirilməsi mərkəzi kimi xidmət edən hökumətlərarası təşkilatdır. BMT, dünyanın ən böyük beynəlxalq təşkilatı kimi tanınır. BMT-nin mənzil-qərargahı Nyu-York şəhərində, Birləşmiş Ştatların ərazisində olsa da, onun jurisdiksiyasından kənar müəyyən imtiyazlara malik beynəlxalq ərazidə yerləşir, Cenevrə, Nayrobi, Vyanada və BMT-nin alt qurumu olan Beynəlxalq Ədalət Məhkəməsinin qərargahı

olan Sülh Sarayının da yerləşdiyi Haaqada digər ofisləri var (UN Official Website, un.org).

**Xüsusi səlahiyyətli dövlətlərarası beynəlxalq təşkilatlar** – fəaliyyəti beynəlxalq münasibətlərin xüsusi sahəsinə yönəlmiş dövlət birlikləri, məsələn, hərbi-siyasi təşkilatlar (NATO), iqtisadi təşkilatlar (Beynəlxalq Volyuta Fondu), mədəniyyət, təhsil və elm sahəsində BMT qurumu (UNESCO).

Şimali Atlantika Müqaviləsi Təşkilatı 32 üzv dövlətin - 30 Avropa və 2 Şimali Amerikanın - hökumətlərarası transmilli hərbi ittifaqıdır. İkinci Dünya Müharibəsindən sonra yaradılan təşkilat 4 aprel 1949-cu ildə Vaşinqtonda imzalanmış Şimali Atlantika Müqaviləsini həyata keçirir. NATO kollektiv təhlükəsizlik sistemidir: onun müstəqil üzv dövlətləri bir-birini üçüncü tərəflərin hücumlarından müdafiə etmə öhtəliyini ifadə edir. Soyuq Müharibə illərində NATO Sovet İttifaqının yaratdığı təhlükəni önləmək üçün fəaliyyət göstərirdi. İttifaq Sovet İttifaqı və Varşava Müqaviləsi dağılandan sonra da qüvvədə qaldı və Balkanlar, Yaxın Şərq, Cənubi Asiya və Afrikada hərbi əməliyyatlarda iştirak edib. NATO-nun əsas qərargahı Belçikanın paytaxtı Brüsseldə, NATO-nun hərbi qərargahı isə Belçikanın Mons şəhəri yaxınlığında yerləşir. Soyuq müharibədən sonra Alyans Şərqi Avropada NATO Cavab Qüvvələrinin sayını ciddi ölçüdə artırıb və bütün NATO üzvlərinin birləşmiş ordularına təxminən

3,5 milyon əsgər və şəxsi heyət daxildir. Bütün üzv dövlətlər birlikdə təxminən 973 milyon nəfər əhalisi olan 25,07 milyon km2 ərazini əhatə edir (NATO, Official Website).

**Açıq dövlətlərarası beynəlxalq təşkilatlar** – üzvlük tələblərinə cavab verən hər bir dövlətin qəbul olunduğu təşkilatlar (məsələn, Ümumdünya Səhiyyə Təşkilatı və digər əksər beynəlxalq təşkilatlar).

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 7 aprel 1948-ci ildə yaradılıb və rəsmi olaraq 1948-ci il sentyabrın 1-də öz işinə başlayıb. O, Xəstəliklərin Beynəlxalq Təsnifatı (ICD) daxil olmaqla, Millətlər Liqasının Səhiyyə Təşkilatının və Parisdə yerləşən Beynəlxalq Gigiyena İctimai Birliyinin aktivlərini, personalını və vəzifələrini özündə birləşdirirdi. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Birləşmiş Millətlər Təşkilatının qlobal ictimai sağlamlıqdan məsul olan ixtisaslaşmış qurumudur. Baş ofisi İsveçrənin Cenevrə şəhərində yerləşir və dünya üzrə 6 regional ofisi və 150 sahə ofisi var. Yalnız suveren dövlətlər üzv olmaq hüququna malikdir və bu, beynəlxalq səviyyədə ən böyük hökumətlərarası səhiyyə təşkilatıdır. ÜST-nin məqsədi bütün dünya insanları üçün mümkün olan ən yüksək sağlamlıq səviyyəsinə nail olmaqdan ibarətdir və sağlamlığı "yalnız xəstəlik və ya əlilliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyəti" kimi müəyyən edir. Ümumdünya Səhiyyə Təşkilatının əsas funksiyalarına epidemiya və endemik xəstəliklərə nəzarəti təşviq etmək daxildir. Eyni zamanda ictimai səhiyyə, xəstəliklərin tibbi müalicəsi və əlaqəli məsələlərdə tədris və təlimin təmin edilməsi və təkmilləşdirilməsi və bioloji məhsullar üçün beynəlxalq standartların yaradılmasını təşviq etmək daxildir (World Healt Organization, Official Website, https://www.who.int).

**Qapalı dövlətlərarası beynəlxalq təşkilatlar** – yalnız təsisçi dövlətlərin razılığı ilə yeni üzvlərin qəbul edildiyi təşkilatlar (məsələn, Avropa İttifaqı, NATO).

Avropa İttifaqı (Aİ) əsasən Avropada yerləşən 27 üzv dövlətdən ibarət fövqəlmilli siyasi və iqtisadi birlikdir. Birliyin ümumi sahəsi 4,233,255 km2 və təxmini ümumi əhalisi 449 milyondan çoxdur. Aİ tez-tez həm federasiya, həm də konfederasiya xüsusiyyətlərini özündə birləşdirən özünəməxsus(sui-generis) siyasi qurum kimi təsvir edilmişdir. 2020-ci ildə dünya əhalisinin 5,8%-ni təşkil edən Aİ-yə üzv dövlətlər 2022-ci ildə təqribən 16,6 trilyon ABŞ dolları dəyərində nominal ümumi daxili məhsul (ÜDM) yaratmışlar ki, bu da qlobal nominal ÜDM-in təxminən altıda birini təşkil edir. Onun təməl daşı olan Gömrük İttifaqı bu məsələlərdə bütün üzv dövlətlərdə tətbiq olunan standartlaşdırılmış hüquqi baza və qanunvericiliyə əsaslanan daxili vahid bazarın yaradılmasına yol açdı. Aİ siyasi proqramları insanların, malların, xidmətlərin və kapitalın daxili bazarda sərbəst hərəkətini təmin etmək məqsədi daşıyır. Şengen zonası daxilində səyahət üçün pasport nəzarəti ləğv edilib. Avro Bölgəsi iqtisadi və pul birliyini tam tətbiq etmiş və avro valyutasından istifadə edən 20 Aİ üzv dövlətindən ibarət qrupdur. Ümumi Xarici və Təhlükəsizlik Siyasəti vasitəsilə ittifaq xarici əlaqələr və müdafiə sahələrində öz rolunu inkişaf etdirmişdir. O, bütün dünyada daimi diplomatik nümayəndəlikləri saxlayır və özünü Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, G7 və G20-də təmsil edir (European Union, Official Website). Qlobal təsirinə görə, Avropa Birliyi bəzi alimlər tərəfindən inkişaf etməkdə olan super güc, dövlət bənzəri amma ``sui-generis`` bir quruluş kimi təsvir edilmişdir.

**Regional dövlətlərarası beynəlxalq təşkilatlar** – müəyyən coğrafi region daxilində yerləşən dövlətlərin birliyi (məsələn, Amerika Dövlətləri Təşkilatı, Ərəb Dövlətləri Liqası, Türk Dövlətləri Təşkilatı).

Əvvəllər Türk Şurası və ya Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanan Türk Dövlətləri Təşkilatı (OTS) beynəlxalq səviyyədə tanınmış türk suveren dövlətlərindən biri istisna olmaqla, hamısını özündə birləşdirən hökumətlərarası təşkilatdır: Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan; Macarıstan, Türkmənistan və Şimali Kipr isə müşahidəçidir. Onun əsas məqsədi türk xalqları arasında hərtərəfli əməkdaşlığı təşviq etməkdir. İlk dəfə Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən 2006-cı ildə təklif edilmiş, 2009-cu il oktyabrın 3-də Azərbaycanın Naxçıvan

şəhərində yaradılmışdır. Baş Katiblik Türkiyənin İstanbul şəhərində yerləşir. Təşkilat Türkmənistandan başqa Macarıstanı və Şimali Kipr Türk Respublikasını da müşahidəçi qismində qəbul edib, baxmayaraq ki, sonuncu yalnız Türkiyə tərəfindən tanınır. 2021-ci ildə İstanbulda keçirilən 8-ci sammit zamanı təşkilat yenidən strukturlaşdırılaraq hazırkı adı qəbul edilib (Organization of Turkic States, Official Website).

Türk Dövlətləri Təşkilatını yaradan Naxçıvan Sazişinin Preambulası üzv dövlətlərin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş məqsəd və prinsiplərə riayət etmək iradəsini bir daha təsdiq edir və Türkdilli Dövlətlər Təşkilatının əsas məqsədini türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlığı daha da dərinləşdirmək, o cümlədən regionda sülh və sabitliyə birgə töhfə vermək kimi müəyyən edir. Üzv dövlətlər demokratik dəyərlərə, insan hüquqlarına, qanunun aliliyinə və yaxşı idarəetmə prinsiplərinə sadiqliklərini nominal olaraq təsdiq ediblər ("Nakhchivan Agreement", 3 October 2009).

**Beynəlxalq təşkilatlar milli dövlətlərin beynəlxalq siyasət aləti kimi**

Beynəlxalq təşkilatlar əməkdaşlıq forması kimi dövlətlərin maraqlarından və ya mövqeyindən asılıdır. Dövlətlərin güman edilən son məqsədi onların varlığını davam etdirməsi və təhlükəsizliyi olduğundan, onların beynəlxalq təşkilatlara yanaşması bu məqsədlərə uyğunluğundan asılıdır. Dövlətlər bəzən hətta başqalarının daha böyük qazanc əldə etmələrinə mane olmaq mütləq qazancları qurban verməyə hazırdırlar. Əməkdaşlıq təkcə digər aktyorların gələcək davranışları ilə bağlı qeyri-müəyyənlik səbəbindən deyil, daha çox nisbi güc itkisi qorxusu səbəbindən daimi sual altında olur. Buna görə də əməkdaşlıq demək olar ki, sabit deyil və ittifaqların formalaşmasına yönəldili, bəzən ümumiyyətlə, balanslaşdırma prinsipinə əsaslanır. Bu zaman isə dövlətlər balanslaşdırma naminə iki koalisiyadan daha zəif olana qoşulmağa üstünlük verə bilirlər. Bu da Beynəlxalq münasibətlərin sıfır toplamlı oyun(zero sum game) nəzəriyyəsi ilə izah edilə bilər (Maier-Rigaud, Remi, 2008, s. 7).

Kenneth Waltz-ın güclü dövlətlərin beynəlxalq təsisatlardan öz maraqları üçün istifadə etməsinə dair iddiasının müəyyən dərəcədə inandırıcılığı var və həqiqətən də güclü dövlətlərin beynəlxalq qurumlara öz iradələrini tətbiq etdiyinə dair nümunələr var. Amma əgər güclü dövlətlər beynəlxalq qurumları beynəlxalq sistemdə nisbi mövqelərini gücləndirdikləri üçün faydalı hesab edirlərsə, açıq-aydın sual yaranır ki, niyə zəif dövlətlər belə beynəlxalq əməkdaşlıqda razılığa gəlsinlər? Beynəlxalq təşkilatda milli dövlətlərin təsiri beynəlxalq sistemin asimmetriyasını əks etdirir (Waltz, 2000, s.21).

**Nəticə**

Son onilliklərdə beynəlxalq aləmdə baş verən dəyişikliklərdən biri beynəlxalq təşkilatların həm sayının, həm də fəaliyyət dairələrinin sürətlə genişlənməsidir. Bu təşkilatlar dövlətlər arasında institusional əməkdaşlığın əsas alətlərindən biri kimi çıxış edir. Ənənəvi olaraq dövlət suverenliyinə aid edilən bir sıra funksiyalar getdikcə daha çox beynəlxalq təşkilatlar tərəfindən yerinə yetirilir ki, bu da dövlətlər arasında daha sıx əməkdaşlığın formalaşmasına səbəb olur. Lakin bu inkişafla yanaşı, müəyyən risklər də ortaya çıxır. Dövlətlərin bəzi öhdəliklərinin qeyri-dövlət aktorlarına ötürülməsi mürəkkəb və çoxölçülü bir prosesdir. Əvvəllər Qərb demokratiyalarında və keçmiş kommunist ölkələrində dövlət tərəfindən həyata keçirilən bir çox xidmətlər bu gün əsasən özəl müəssisələr tərəfindən təmin edilir. Bu fəaliyyətlər iqtisadi sahələrdən həbsxana və təhlükəsizlik xidmətlərinə qədər müxtəlif sektorları əhatə edir. Eyni zamanda, bəzi funksiyaların Birləşmiş Millətlər Təşkilatı (BMT) və Avropa İttifaqı (Aİ) kimi beynəlxalq və fövqəlmilli qurumlara həvalə edilməsi tendensiyası müşahidə olunur. Bundan əlavə, müəyyən funksiyaların qeyri-hökumət beynəlxalq təşkilatlara verilməsi halları da mövcuddur.

Beynəlxalq aləmdə artan tendensiya dövlətin ənənəvi fəaliyyətinin bir hissəsinin beynəlxalq təşkilatlara verilməsidir. Dövlət öz vətəndaşlarına göstərdiyi xidməti beynəlxalq təşkilata ötürürsə, öz

qanunvericilik bazasını və effektiv məsuliyyət sistemini qurduqdan sonra bu transferi etməlidir. Beynəlxalq təşkilatlar güclərini əsasən üzv dövlətlərdən aldıqları üçün beynəlxalq təşkilatların orqanlarının öz üzvləri qarşısında siyasi öhdəlikləri var. Üzv dövlətlər daxili mexanizmlər vasitəsilə təşkilat tərəfindən pozuntuların qarşısını ala və ya məhdudlaşdıra bilər. Bundan əlavə, üzv dövlətlər səsvermə hüququ, təmin etdikləri maliyyə resursları və digər vasitələrlə beynəlxalq təşkilat orqanlarının məsuliyyətini artıra və səlahiyyətlərini məhdudlaşdıra bilərlər. Bundan əlavə, üzv dövlətlər daxili mexanizmlər vasitəsilə beynəlxalq təşkilata nəzarəti saxlayırlar, beləcə beynəlxalq təşkilatların fəaliyyəti üzv dövlətlərin təsirinə məruz qalır, qəraralma prosesi üzv dövlətlərin təzyiqindən yayına bilmir. Bu hal xüsusilə də güclü üzv ölkələrin misalında daha aydın görünür.

**Ədəbiyyat**


Hikmət Babaoğlu, Dünya Siyasəti və Beynəlxalq Münasibətlə, Bakı, «Çinar-Çap», 2010, 568 Səh.

United Nations, Official Website, https://www.un.org/en/about-us Accessed: 28.02.2025.

NATO, Official Website, https://www.nato.int/cps/en/natohq/organisation.htm

World Healt Organization, Official Website, https://www.who.int Accessed: 28.02.2025.

European Union, Official Website, https://european-union.europa.eu/index_en Accessed: 28.02.2025.

Çınar Özen, Özgür Tonus, 2013, Uluslararasi Örgütler, T.C. Anadolu Üniversitesi Yayini No: 2920 Açik Öğretim Fakültesi Yayını, NO: 1877, Eskişehir, 223 səh.

Nakhchivan Agreement on the Establishment of the Cooperation Council of Turkic-speaking States, signed by Azerbaijan, Kazakhstan, Kyrgyzstan and Turkey at the 9th Summit of the Heads of the Turkic-speaking Countries in Nakhchivan city, Azerbaijan on 3 Oct. 2009. https://www.turkicstates.org/u/d/basic-documents/nakhchivan-agreement-on-the-establishment-of-the-copperation-council-of-turkic-speaking-states-1-en.pdf Accessed: 28.02.2025.

Organization of Turkic States, Official Website, https://www.turkicstates.org/en Accessed: 28.02.2025.

Maier-Rigaud, Remi, 2008, International Organizations as Corporate Actors: Agency and Emergence in Theories of International Relations. SSRN Electronic Journal, p. 1-34.

Waltz, Kenneth N. 2000: Structural Realism after the Cold War. In: International Security 25 (1), 5-41.


## SUMMARY
## INTERNATIONAL ORGANIZATIONS AS MAIN ACTORS OF THE MODERN INTERNATIONAL RELATIONS SYSTEM


**TABRIZE BAGIROVA**
**PhD student at Nakhchivan State University,**



In the modern system of international relations, founded by the Treaty of Westphalia, international organizations have begun to play an important role in regulating interstate relations and establishing cooperation. In recent decades, the number and functions of international organizations have expanded rapidly. Some functions previously under the authority of states are now performed by international organizations, which increases integration between states. At the same time, the transfer of some of the obligations of states to non-state actors creates new risks. The responsibility of the United Nations (UN), the European Union (EU) and other international organizations to member states and the ability to influence their decisions is an important topic of discussion in this context. As a result, the

activities and influence of international organizations are formed within the interests and control mechanisms of member states.

**Keywords:** *International relations, international organizations, nation states*

**РЕЗЮМЕ**

**МЕЖДУНАРОДНЫЕ ОРГАНИЗАЦИИ КАК ОСНОВНЫЕ СУБЪЕКТЫ СОВРЕМЕННОЙ СИСТЕМЫ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ**

**ТАБРИЗЕ БАГИРОВА**
**Докторант Нахчыванского Государственного Университета**

В современной системе международных отношений, созданной Вестфальским миром, международные организации стали играть важную роль в регулировании межгосударственных отношений и налаживании сотрудничества. За последние десятилетия число и функции международных организаций стремительно расширились. Некоторые функции, которые ранее входили в компетенцию государств, теперь выполняются международными организациями, что усиливает интеграцию между государствами. В то же время передача части обязанностей государств негосударственным субъектам создает новые риски. Ответственность Организации Объединенных Наций (ООН), Европейского союза (ЕС) и других международных организаций перед государствами-членами и их способность влиять на их решения являются важными темами для обсуждения в этом контексте. В результате деятельность и влияние международных организаций формируются в рамках интересов и механизмов контроля государств-членов.

**Ключевые слова:** *Международные отношения, международные организации, национальные государства*